ƏMR
№ F-83

Bakı şəhəri 16 iyun 2021-ci il

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında İctimai şuranın seçki komissiyasının yaradılması haqqında

"İctimai iştirakçılıq haqqında Azərbaycan Respublikasının 2013-cü il 22 noyabr tarixli 816-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 16 yanvar tarixli 89 nömrəli Fərmanının 1.1.5-ci yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2014-cü il 30 may tarixli 171 nömrəli Qərarı ilə təsdiq edilmiş "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"nin 2.2-ci və 2.3-cü bəndlərinə əsasən Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin 5.5.13-cü yarımbəndini rəhbər tutaraq

əmr edirəm:

1. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında İctimai şura üzvlüyünə seçkilərin təşkili məqsədilə aşağıdakı tərkibdə İctimai şuranın seçki komissiyası yaradılsın:

Komissiyanın sədri:

Ayaz Əliyev – İqtisadiyyat Nazirliyinin Aparat rəhbəri

Komissiyanın üzvləri:

Məsim Məmmədov – iqtisadiyyat nazirinin müşaviri
Tural İsgəndərov – İqtisadiyyat Nazirliyinin Hüquq şöbəsinin müdiri
Ələkbər Məmmədov – İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Dövlət qeydiyyatı baş idarəsinin rəisi
Tahir Mirkişili – Milli Məclisin deputatı, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri
Vüqar Bayramov – Milli Məclisin deputatı, Sosial İnkişaf Mərkəzinin (CESD) təsisçisi və sədri

Məmməd Musayev – Azərbaycan Sahibkarlar və İşəgötürənlər Konfederasiyasının prezidenti

Nazim İmanov – Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun direktoru

Sənan Nəcəfov – Sosial Təşəbbüslər Mərkəzinin sədri, qhtxeber.az xəbər portalının baş redaktoru

2. Komissiya İctimai şuraya seçkilərin təşkili ilə bağlı zəruri tədbirləri görsün.

3. Hüquq şöbəsinin müdiri Tural İsgəndərova tapşırılsın ki, Komissiyanın fəaliyyətinin təşkili ilə bağlı cari işlərin həyata keçirilməsini təmin etsin.

4. Əmrin icrasına nəzarət iqtisadiyyat nazirinin müavini Elnur Əliyevə həvalə edilsin.

Əsas : nazirin müavini Elnur Əliyevin 30.03.2021-ci il tarixli İN-D/Y-8937/2021 nömrəli xidməti məruzəsi.

**Nazir** **Mikayıl Cabbarov**